Respublika.- 2 may.-
S.5

# Yubiley tədbiri




Uşaqlıqdan rəssamlığa böyük həvəsi olub Rafiq Hacıyevin. Orta məktəbdə hamı onu rəssam kimi tanıyırdı. Çəkdiyi şəkillər "Azərbaycan pioneri" qəzetində dərc edilirdi. Sonralar musiqiyə də həvəsi yarandı. Gözəl məlahətli səsi vardı. Hələ jurnalistika fakültəsində oxuyanda bir dəfə özünü sınağa da çəkmişdi. Belə ki, Üzeyir Hacıbəylinin 90 illik yubiley tədbirində bəstəkarın "Leyli və Məcnun" operasında Məcnun rolunu da oynamışdı. Tədbir haqqında respublikanın ən mötəbər mətbuat orqanı - "Kommunist" qəzetində dərc olunmuş yazıda onun da ifaçılığından bəhs edilirdi. Yazmağa isə onda həvəs altıncı sinifdə oxuyarkən başlayıb və böyük, maraqlı, zəngin yaradıcılıq yolu beləcə yaranıb...

Beynəlxalq Mətbuat Mərkəzində təşkil olunmuş yubiley tədbirində toplaşanlar və söz alıb danışanlar da arxada qalmış altmış beş illik ömür payının məhz belə yaddaqalan məqamlarına toxundular.

Rafiq Hacıyev 1954-cü il may ayının 8-də ziyalı ailəsində anadan olub, 1975-1980-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) jurnalistika, daha sonra 1997-2001-ci illərdə isə hüquq fakültəsində qiyabi təhsil alıb. Hələ tələbə ikən, yəni jurnalistika fakültəsinin birinci kursunda oxuyarkən, "Kommunist" qəzetinə işə götürülüb. Uzun illər həmin qəzetin "Partiya həyatı", "Mədəniyyət" şöbəsində və katiblikdə müxbir, baş müxbir, məsul katib müavini və məsul katib əvəzi işləyib. Eyni zamanda, paralel olaraq bu nəşrə əlavə çıxan "Səhər" qəzetinin də məsul katibi olub.

1986-cı ildə Sov.İKP MK-nın rayon qəzetlərinə praktik yaradıcılıq köməyi göstərilməsi ilə bağlı, Azərbaycan KP MK-nın nümayəndəsi kimi Laçın rayonunda çıxan "Laçın" qəzetində uzun müddət yaradıcılıq məzuniyyətində olub, bu qəzetin forma və məzmununun daha da yaxşılaşdırılması, Mərkəzi Komitənin tələblərinə cavab verməsi istiqamətində kollektivə yaxından praktiki, əməli kömək göstərmişdir.

1991-1993-cü illərdə "Azərbaycan", "Həyat" (keçmiş "Sovet kəndi") qəzetlərində məsul katib, xaricdəki həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin - "Vətən" Cəmiyyətinin orqanı olan "Odlar Yurdu" qəzetinin baş redaktoru vəzifəsində çalışıb. 1993-1995-ci illərdə Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın müxbiri və məsul redaktoru işləyərkən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirak etdiyi dövlət tədbirlərinin işıqlandırılmasında peşəkar jurnalist kimi yaxından iştirak etmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğu Mətbuat Mərkəzinin məsul əməkdaşı kimi (1995-2000-ci illər) bu orqandakı səmərəli fəaliyyəti zamanı prokurorluğun 80 illik yubileyinə və şəxsiyyət əleyhinə törədilmiş ən maraqlı cinayət işlərinin istintaqına həsr edilmiş genişhəcmli "İstintaqı peşəkarlar aparır" adlı bədii-sənədli kitabı çap olunub.

Yubiley tədbirini Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı, Əməkdar jurnalist Əflatun Amaşov açaraq tədbir iştirakçılarını salamladı. Sonra yubilyarın yaradıcılıq yolundan danışaraq dedi: "Biz bu gün Rafiq Hacıyevin 65 illik yubileyini qeyd etməyə yığışmışıq. O, peşəkar jurnalistdir, müxtəlif mətbuat orqanlarında çalışıb və eyni zamanda hüquqşünasdır. "İstintaqı peşəkarlar aparır" kitabı da Rafiq Hacıyevin peşəkar jurnalist olduğunu təsdiq edir. Azərbaycan Mətbuat Şurası məhz belə məhsuldar yaradıcılıq yoluna malik olan bir jurnalistin yubileyini keçirməyi qərara almışdır. Onu təbrik edir, yeni-yeni böyük yaradıcılıq uğurları arzulayıram".

Sonra Əflatun Amaşov Mətbuat Şurasının diplomunu Rafiq Hacıyevə təqdim etdi.

Digər çıxış edənlər, Məzahir Süleymanzadə, Azərbaycan Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlı, millət vəkilləri Çingiz Qənizadə, Aqil Abbas, şair Oqtay Rza, Adil Cəmil, Qulu Məhərrəmli, Tahir Aydınoğlu, Xalq artisti tarzən Ramiz Quliyev, prokurorluğun keçmiş əməkdaşı İlham Abbasov və bir çox başqaları Rafiq Hacıyevlə bağlı xoş xatirələrini tədbir iştirakçıları ilə bölüşüb, yaradıcılığının ayrı-ayrı məqamlarından söz açdılar. Qeyd etdilər ki, Rafiq Hacıyev çoxşaxəli yaradıcılığı ilə sənət və mətbuat dünyamızı zənginləşdirib, özü də gözəl şəxsiyyət kimi formalaşıb. O, harada işləməsindən asılı olmayaraq, bütün sahələrdə özünü əsl peşəkar kadr kimi göstərib.

Qeyd edək ki, Rafiq Hacıyev SSRİ Jurnalistlər İttifaqının, Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Hüquqşünaslar Birliyinin, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Birliyinin və Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Mətbuatda uzun illər səmərəli fəaliyyətinə görə və "Kommunist" qəzetinin 70 illik yubileyi münasibətilə Azərbaycan Jurnalistlər İttifaqı İdarə Heyətinin fəxri fərmanı ilə təltif edilib.

Respublika mətbuatında prokurorluq orqanlarının istintaq fəaliyyəti ilə bağlı dərc edilmiş silsilə bədii-sənədli hekayələrinə görə 2015-ci ildə Azərbaycan Jurnalistlər Birliyinin Həsən bəy Zərdabi mükafatına layiq görülüb. Prokurorluq işçilərinin çətin və şərəfli işindən bəhs edən ikicildlik kitabın müəllifidir. "Başsız qadının sirri..." adlı doqquzhissəli romanı üzərində yaradıcılıq işini başa çatdırıb. Görkəmli tarzən, respublikanın Əməkdar artisti Əhsən Dadaşovun 95 illik yubileyinə həsr edilmiş "Əhsən sənə, Əhsən!..." adlı bədii-sənədli kitabı isə çap prosesindədir.

Rafiq Hacıyev Azərbaycan jurnalistikasının inkişafındakı xidmətlərinə görə 2017-ci ildə Azərbaycan Yazıçılar Birliyinin Cəfər Cabbarlı ədəbi mükafatına, Xalq şairi Rəsul Rzanın "Rənglər" şeirlər toplusu ilə bağlı məqaləsinə görə isə 2018-ci ildə Azərbaycan Yazıçılar Birliyinin Rəsul Rza ədəbi mükafatına layiq görülüb

Bəli, illər bir-birini əvəz edib, altmış beş ilin tamamına gətirib onu. Artıq indi ömrün müdriklik çağına doğru bir yol açılır. Əminik ki, Rafiq müəllim bu yolu da uğurla qət edəcək.

**Əli SADIQOV,**
**"Respublika".**